# QARABAĞ DEDNDROFLORASININ NADİR BİTKİLƏRİ

**Sadıx Qarayev*, Elman İsgəndər**

*AMEA-nın Mərkəzi Nəbatat Bağı*

Azərbaycan Respublikasının florasında 5000-nə yaxın bitki növü yayılmışdır. Bunlardan 467 növü ağac və kol bitkiləridir. Qafqaz florasına aid bitki növlərinin yarıdan çoxuna Azərbaycanda rast gəlmək olar. Aparılan tədqiqatlardan məlum olmuşdur ki, introduksiya edilən bitki növləri təbiətdə yayılan növlərin 68%-ni, cinslərin 87%-ni və fəsilələrin 95%-ni təşkil edir. Ermənistanın Azərbaycan ərazisinin 20%-ni işğal etməsi və bu toppaqların uzun müddət erməni hərbçilərinin nəzarəti altında qalması bölgədə mövcud olan nadir bitkilərə qarşı təhdidi artırmış və nəticədə bitkilərin olduğu fitosenoloji struktur pozularaq həmin bitkilərdən müəyyən növlər yox olmaq təhlükəsi qarşısında qalmışdır.

Məlumdur ki, Azərbaycanın meşə ehtiyatlarının 49%-i Böyük Qafqaz regionunun, 34%-i Kiçik Qafqaz regionunun, 15%-i Talış zonasının və 2%-i Aran zonasının (Naxçıvan MR ilə birgə) payına düşür. Tədqiqat bölgəsi olan Qarabağ Azərbaycanın Kiçik Qafqaz botaniki-coğrafi rayonunun mərkəzi və cənubi hissələrini əhatə edir. Qarabağ dendroflorasında yayılan 40-dan artıq nadir və nəsli kəsilməkdə olan ağac və kol növləri (*Taxus baccata* L., *Juniperus foetidissima* Willd., *Pinus kochiana* Klotzsch ex K.Koch., *Corylus colurna* L., *Celtis caucasica* Willd., *Celtis australis* L., *Thelycrania iberica* (Woronow) Pojark., *Daphne transcaucasica* Pobed., *Amygdalus fenzliana* (Fritsch) Lipsky., *Pyracantha coccinea* M.Roem., *Pistacia mutica* fisch.et C.A. Mey., *Rhus coriaria* L., *Euonymus velutina* Fisch. Et C. A. Mey., *Astragalus xiphidium* Bunge, *Cytisus caucasicus* Grossh., *Genista patula* M.Bieb., *Quercus crispata* Steven, *Quercus araxina* (Taurtv.) Grossh., *Genista transcaucasica* Schischikin, *Punica granatum* L. , *Thymus fedtschenkoi* Ronniger, *Thymus transcaucasicus* Ronniger, *Acantholimon fominii* Kusn., *Ficus hyrcana* A.Grossh., *Syringa ×persica* L., *Pyrus elata* Rubtz., *Pyrus zangezura* Maleev, *Pyrus complexa* Rubtz., *Pyrus salicifolia* Pall., *Sorbus subfusca* Boiss., *Platanus orientalis* L., *Rosa komarovii* Sosn., *Acer trautvetteri* Medw., *Zelkova carpinifolia* (Pall) C.Koch., *Crataegus caucasica* C.Koch və s.) qeydə alınmışdır. Bölgədə təbii halda yayılmış oduncaqlı nadir bitkilərdən Paltav və Turqay florasına aid relikt və endem növlər tədqiqatçılar tərəfindən müəyyən edilmişdir.

Qarabağın mövcud dendroflorası erməni işğalçıları tərəfindən bitki terroruna məruz qalması nəticəsində böyük zədə almışdır. Tədqiqat bölgəsində zədələnmiş bitki örtüyünün bərpa edilməsi üçün bir sıra tədqiqat işləri aparılmalıdır.